# MƏDƏNİYYƏT NAZİRLİYİ MÜHARİBƏ GÜNLƏRİNDƏ

***Oktyabrın 4-də*** *Gəncə şəhərinin ağır artilleriyadan atəşə tutulmasından sonra Mədəniyyət Nazirliyi Bəyanat qəbul edib. Bəyanatda Gəncə ərazisində 195 daşınmaz tarixi-mədəniyyət abiəsindən 1-nin dünya əhəmiyyətli arxeoloji, 15-nin ölkə əhəmiyyətli memarlıq, 3-nün ölkə əhəmiyyətli bağ-park, monumental və xatirə, 169-nun yerli əhəmiyyətli memarlıq, 6-nın yerli əhəmiyyətli bağ-park monumental və xatirə abidələri, 1-nin dekorativ-tətbiqi sənət nümunəsi olduğu xatırladılır. Bəyanatda o da deyilir ki, Gəncə şəhəri 2020-ci il sentyabrın 23-də UNESCO-nun öyrənilən şəhərlər üzrə Qlobal Şəbəkəsinə (UNESCO GLOBAL NETWORK OF LEARNING CITES) üzv seçillib.*

**Oktyabrın 12-də** mədəniyyət obyektlərinin oğurlanması və ya qeyri-qanuni ixracı ilə bağlı beynəxalq onlayn konfrans keçirilib. Konfrans UNIDRUA Konvensiyasının 25-ci ildönümünə həsr olunmuşdu. Konfransda iştirak edən nazirliyin muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin sektor müdiri Yaşar Hüseynli nümunə olaraq Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində baş verənləri misal gətirib, muzeylərin, qalereyaların, sarayların kitabxanaların, məbədlərin və digər tarixi-mədəni abidələrin məhv edildiyini, yüz minlərlə mədəni əşya və muzey eksponatının qarətə məruz qaldığını konfrans iştirakçılarının diqqətinə çatdırıb. Sektor müdiri UNIDRUA Konvensiyası bu və ya digər səbəblə şəxsi kolleksiyalarda saxlanılan, hərraclarda, yarmarkalarda yerləşdirilən oğurlanmış mədəni obyektlərin müəyyən edilməsində əvəzsiz rol oynaya biləcəyini qeyd edib.

**Sentyabrın 27-də Azərbaycan Respublikasının silahlı qüvvələri Ermənistan Respublikası silahlı qüvvələrinin işğal etdiyi əraziləri beynəlxalq norma və sənədlər çərçivəsində tərk etmək əvəzinə digər ərazilərimizə, konkret olaraq yay aylarında Tovuz bölgəsinə təcavüzünə cavab olaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında başladığı Vətən Müharibəsinin ilk günlərində onlarla mədəniyyət xadimimiz xalqa müraciət edərək bu savaşın haqq savaşı olduğunu vurğulamış və mədəniyyət meydanının əsgərlərinin hərb meydanının əsgərlərinə çevrilə biləcəyini və ya mənəvi dayaq olacaqlarını bildirmişlər.**

**Sentyabrın 27-də** Dağlıq Qarabağ və ətraf yeddi rayonun 1990-cı illərin əvvəllərindən davam edən erməni işğalından azad edilməsi uğrunda başlanan Vətən Müharibəsi maddi, mədəni, tarixi və memarlıq abidələrimizə cavabdeh qurum kimi Mədəniyyət Nazirliyinin fəaliyyətinə də öz izini saldı. Ötən bir ay ərzində mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov oktyabrın 9-dan 10-na keçən gecə Gəncə şəhərinə raket hücumu ilə bağlı UNESCO-nun baş direktoruna müraciət ünvanladı. Müraciətdə münaqişə zonasından 80 km uzaqda yerləşən Gəncənin Moskva şəhərində imzalanan atəşkəs razılaşmasından bir sutka ötməmiş Ermənistan rəhbərliyinin əmri ilə raket hücumuna məruz qalması nəticəsində dinc əhali arasında ölən və yaralananların olması vurğulanıb. Müraciət UNESCO rəhbərliyinin diqqətinə çatdırır ki, 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyasına görə baş verənlər müharibə cinayətidir. Xüsusən nəzərə alsaq ki, Ermənistan hökuməti hücumda daha çıx dağıntı və ölümə hesablanmış SCUD raketindən istifadə edib. Nazirliyin müraciətində Gəncənin Azərbaycanın ikinci ən böyük şəhəri olaraq, zəngin tarixi, ictimai-siyasi, mədəni keçmişi və bu günü olması qeyd edilir. Ermənistanın bu addımı Mədəni irsin hədəfə alınması İCC-nin 2016-cı ildə Əl-Mehdi işi ilə bağlı verdiyi məşhur qərarına uyğun olaraq birmənalı şəkildə müharibə cinayəti kimi səciyyələnir. Müraciətdə Ermənistanın 27 ildən bəri mədəni və tarixi irsimizi məhv etmək və ya dəyişmək əməlləri ATƏT-in 2005 2010-cu illərə aid işğal olunmuş ərazilərə dair faktaraşdırıcı missiyaları tərəfindən sənədləşdirilib, 1954-cü il UNESCO-nun Haaqa Konvensiyasının Silahlı Münaqişə baş verdikdə Mədəni Mülkiyyətin Qorunması və onun 2 Protokoluna zidd olduğuna UNESCO rəhbərliyinin müvafiq reaksiya verəcəyinə ümid ifadə olunub.

***Nazirlik qəhrəman ordumuzun Vətən Müharibəsindəki zəfərinin əks-sədası olaraq və hər qarışı tarix danışan Qarabağın zəngin mədəni mirasının təbliği məqsədilə müxtəlif layihələr gerçəkləşdirib. Bunlardan biri "Yalnız ərazi bütövlüyü yox, kimlik bütövlüyü" şüarı ilə keçirilən və videoçarxlardan ibarət olan "Qarabağnamə" layihəsidir.***

**Rəşadət**